**“Statistika xəbərləri” elmi-praktik jurnalının redaksiyasına**

İ.e.d., professor Həsənli Yadulla Həmdulla oğlu və Quliyev Gülbala Rza oğlunun “Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının Kobb-Duqlas funksiyası ilə təhlili” adlı məqaləsinin “Statistika xəbərləri” elmi-praktik jurnalında nəşr olunması üçün

**Rəy**

Məqalədə neft gəlirlərinin azalması fonunda kənd təsərrüfatının inkişafını zəruri edən amillər nəzərdən keçirilmiş və bu sahədə potensialın üzə çıxarılması üçün ilk növbədə təhlillərin aparılmasında riyazi üsul və modellərdən, o cümlədən ekonometrik qiymətləndirmədən geniş istifadə olunmasının zəruriliyi vurğulanmışdır.

Müəlliflər kənd təsərrüfatının əsas göstəricilərinin qiymətləndirilməsi üçün Kobb-Duqlas funksiyasından istifadə etmişlər. Təhlillərin aparılması üçün kənd təsərrüfatının ümumi buraxılışı, əsas fondları və məşğul əhalinin sayı kimi göstəricilərin zaman sıraları qurulmuş və onların qrafik təsvirləri əldə olunmuşdur. Eviews proqram paketi vasitəsilə statistik testlər keçirilmiş və göstəricilərin dinamika sıraları yoxlanmışdır. Aparılmış təhlilər əsasında Azərbaycanda kənd təsərrüfatı üçün qiymətləndirilmiş Kobb-Duqlas istehsal funksiyasının standart şəkli müəyyən edilmişdir. Məqalədə kənd təsərrüfatının mühüm göstəriciləri olan məhsul buraxılışı, əsas fondlar və məşğul əhalinin sayı arasında qanunauyğunluqlar müəyyən edilmişdir.

Məqalə çox aktual mövzunu əhatə etdiyi üçün çapa tövsiyə edilə bilər.

**Azərbaycan Respublikası**
**Dövlət Statistika Komitəsi**
**sədrinin müavini**

**i.e.n. Səlimov Rauf Ağaməmməd oğlu**